AZ   RBAYCAN MİLLİ ELML   R AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI

## I kitab

## (NAXÇIVAN FOLKLORU)

BAKI – 2010

Az
A-39

**Az rbaycan Respublikası MEA**
**Folklor İnstitutu Elmi Şurasının**
**q rarı il çap olunur**

**TOPLAYIB**
**TƏRTİB EDƏNLƏR:** f.e.d., prof. **Hüseyn İSMAYILOV,**

f.e.d., prof. **Mürsəl HƏKİMOV**

**REDAKTORU:** f.e.d. İsrafil **ABBASLI**

**R YÇİL R:** f.e.d., prof. **Qara NAMAZOV**

**Az rbaycan folkloru antologiyası, XXI kitab (Qazax folkloru),** Bakı, "Nurlan" n şriyyatı, 2010.

Az rbaycan MEA Folklor İnstitutunun n şr etdirdiyi "Az rbaycan folkloru antologiyası" silsil sind n olan bu cildd Az rbaycanın Qazax bölgəsinin zəngin folklor materialları toplanmışdır.

A $\frac{3202050000}{098 - 2010}$ Qrifli nəşr

© Folklor İnstitut, 2010.

## ÇOXCİLDLİ "AZ RBAYCAN FOLKLORU ANTOLOGİYASI"NIN (AFA) N ŞR OLUNMUŞ KİTABLARI

**1. AFA, I.** Naxçıvan folkloru, t rtib ed nl r: T hmasib F rz liyev, M h rr m Qasımlı, elmi redaktoru v “Ön söz“ün mü llifi İsrafil Abbasov, r yçil r: V li liyev, B hlul Abdulla, Bakı, “Sabah“ n şriyyatı, 1994.

**2. AFA, II.** İraq-Türkman folkloru, t rtibçil r: filologiya elml ri doktoru, professor Q z nf r Paşayev, doktor b-düll tif B nd roğlu, redaktoru filologiya elml ri dok-toru, professor Yaşar Qarayev, r yçil r: filologiya elml ri dok-toru, professor Azad N biyev, filologiya elml ri doktoru, pro-fessor İsrafil Abbaslı, Bakı, “Ağrıdağ“ nəşriyyatı, 1999.

**3. AFA, III.** Göyç folkloru, toplayıb t rtib ed ni, ü-seyn İsmayılov, redaktoru filologiya elml ri doktoru, pro-fessor Yaşar Qarayev, r yçil r: fiollogiya elml ri doktoru, professor Qara Na-mazov, filologiya elml ri namiz di Oruc liyev, Bakı, “S da“ n şriyyatı, 2000.

**4. AFA, IV.** Ş ki folkloru, t rtib ed nl r: filologiya elml ri namiz di Oruc liyev, ikm t bdülh limov, Ra-mazan Qafarov, Vaqif Aslan, elmi redaktoru v “Ön söz“ün mü llifi filologiya elml ri doktoru, professor Yaşar Qa-ra-yev, r yçil r: filologiya elml ri namiz di üseyn İsmayılov, s n tşünaslıq namiz di Faiq Ç l bi, Bakı, “S da“ n ş-riy-yatı, 2000.

**5. AFA, V.** Qarabağ folkloru, toplayanlar: İsrafil Ab-baslı, T hmasib F rz liyev, N c f Nazim (Quliyev), t rtib ed ni v “Ön söz“ün mü llifi filologiya elml ri doktoru, professor İsrafil Abbaslı, redaktorları: filologiya elml ri dok-toru, professor Yaşar

Qarayev, filologiya elml ri nami-z -di, dosent üseyn İsmayı-lov, r yçil r: filologiya elml ri doktoru B hlul Abdulla, filolo-giya elml ri namiz di Oruc liyev, “Bakı“, “S da“ n şriyyatı, 2001.

**6. AFA, VI.** Ş ki folkloru, t rtib ed ni: ikm t bdülh -limov, elmi redaktoru filologiya elml ri doktoru, pro-fessor Yaşar Qarayev, “Ön söz“ün mü llifi sənətşünaslıq na-mizədi Faiq Çələbi, r yçi filologiya elml ri namiz di ü-seyn İsmayılov. Bakı, “S da“ n şriyyatı, 2002.

**7. AFA, VII.** Qaraqoyunlu folkloru, t rtib ed nl r: filolo-giya elml ri namiz di üseyn İsmayılov, Qurban Sü-ley-manov, elmi redaktoru filologiya elml ri doktoru, professor Qara Nama-zov, r yçil r, filologiya elml ri doktoru İsrafil Abbaslı, filologiya elml ri namiz di Oruc liyev. Bakı, “S -da“ n şriyyatı, 2002.

**8. AFA, VIII.** Ağbaba folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Tacir Qur-banov, redaktoru filologiya elmləri doktoru, professor İs-rafil Abbaslı, rəyçi filologiya elmləri namizədi Əziz Ələk-bərli, Bakı, “Səda” nəşriyyatı, 2003.

**9. AFA, IX.** Gəncəbasar folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Raziyə Quliyeva, redaktoru filologiya elmləri doktoru, professor İsrafil Ab-baslı, rəyçilər filologiya elmləri namizədi Sərxan Xavəri, Ağa-verdi Xəlil, Bakı, "Səda" nəşriyyatı, 2004.

**10. AFA, X.** İrəvan folkloru, toplayıb tərtib edənlər: filo-logiya elmləri namizədi Hüseyn İsmayılov, filologiya elmləri na-mizədi Əziz Ələkbərli, redaktoru prof. İsrafil Abbasov, rəyçilər: AMEA-nın müxbir üzvü Teymur Bünyadov, prof. Qara Nama-zov.

**11. AFA, XI.** Şirvan folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri doktoru Hüseyn İsmayılov, filologiya elm-ləri doktoru Seyfəddin Qəniyev, redaktoru filologiya elm-ləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elm-ləri namizədi Oruc Əliyev, Ağaverdi Xəlil.

**12. AFA, XII.** Zəngəzur folkloru, toplayıcılar: f.e.d. Vəli Nəbioğlu, f.e.n. Muxtar Kazımoğlu, f.e.n. Əfsələddin Əsgər, tərtib edənlər: Əfsələddin Əsgər, Muxtar Kazımoğlu, re-dak-toru: f.e.d. Hüseyn İsmayılov, rəyçilər: f.e.n. Təhmasib Fər-zəliyev, f.e.n. Oruc Əliyev.

**13. AFA, XIII.** Şəki-Zaqatala folkloru, tərtibçilər: filo-logiya elmləri doktoru, prof. İsrafil Abbaslı, filologiya elm-ləri namizədi Oruc Əliyev, filologiya elmləri namizədi Mə-ta-nət Abdullayeva, elmi redaktoru: filologiya elmləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri namizədi Təh-masib Fərzəliyev, filologiya elmləri namizədi Ramil Əliyev.

**14. AFA, XIV.** Dərbənd folkloru, toplayıcılar: filologiya elmləri doktoru Hüseyn İsmayılov, filologiya elmləri namizədi Samilə Xurdamiyeva, tərtibçilər: filologiya elmləri doktoru, Hü-seyn İsmayılov, Tahir Orucov, elmi redaktoru: filologiya elm-ləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri namizədi Sərxan Xavəri, filologiya elmləri namizədi Ağaverdi Xəlil.

**15. AFA, XV.**

**16. AFA, XVI.**

**17. AFA, XVII.**

**18. AFA, XVIII.**

**19. AFA, XIX.**

**19. AFA, XX.**

## Yeddi daş əfsanəsi

Culfa rayonu ilə Ordubad rayonunun arasında «Ölüşəhər» deyilən qədim bir yer var. Belə rəvayət edirlər ki, oranın şahı Dağ Yunis adlı bir şah xalqa çox əziyyət, zülm verdiyindən 6 nəfər bu şəhərdən qaçır (Dağ Yunis – adamlara dağ basan, əziyyət verən deməkdir.)

Həmin altı adam Ərəfsə kəndinin üstündəki dağa çıxırlar. Bu zaman bir cavan həmin adamlarla rastlaşır və soruşur:

– Hara gedirsiz?

Onlar cavab verirlər ki, Dağ Yunisin, yəni şahın zülmkarlığından bu vilayətdən qaçırıq. Cavan deyir ki, məni də özünüzlə aparın. O da adamlara qoşulub gedir. Çoban gedərkən onun iti də arxasınca gəlir. Çoban itə acıqlanır və onu qaytarmaq üçün ağacla vurub qıçasını sındırır. Lakin it qayıtmır, onlarla gedir.

Onlar hamısı gəlib Asəfkər (insan daş olan) dağında yatırlar. Bir neçə müddət sonra yuxudan ayılırlar və ac olduqlarını hiss edirlər. Yoldaşlardan biri Ərəfsə kəndinə qayıdır və kənd əhlinə pul verir ki, bizə çörək verin. Kənd camaatı isə ona gülür və onu dəli hesab edirlər. Bu adam onların nəyə gülməyini soruşanda pulu ona göstərib deyirlər:

– Bu pulun padşahı 300 il əvvəl olub.

Buradan belə rəvayət olunur ki, bu adamlar 300 il yatıblar. Ordan həmin adam geri qayıdır və eşitdiklərini yoldaşlarına nəql edir. Yoldaşları Allaha üz tutur və bu dünyada yenidən qalmaq istəmirlər. Yalvarırlar ki, Allah bizi daş elə.

Guya rəvayətə görə, həmin dağda yeddi adam və bir də it daş olubdur. Hal-hazırda da yeddi adam və bir it Asəfkəf dağında var.

Rəvayəti nəql edən: Sabir Əhməd oğlu Abdullayev.

Naxçıvanın Naraşek rayonunun Yenkiçə sakini, ziyalı, 46 yaşında.

Naxçıvan şəhərinin adının iki mənası var.

I məna: Naxşıcahan – Dünyanın naxışı.

Belə rəvayət edirlər ki, guya memarlıq abidələrinin ornamentlərini, naxışlarını Naxçıvan memarlıq abidələrindən götürüblər. Bu rəvayət həqiqətə yaxındır. Çünki Naxçıvanda gözəl, yaraşıqlı memarlıq abidələri var.

II məna: Nəql edirlər ki, guya vaxtı ilə Nuh peyğəmbər dünyanın üzünü su alarkən gəmiyə minib dünyanı gəzir.Və dünyada ancaq quru yer Naxçıvan şəhəri yaxınlığında olur.

Naxçıvan – Nuhçıxan deməkdir.

Sabir Abdullayev